# SEÇKİ MONİTORİNQ MƏRKƏZİ

**Azərbaycan Respublikası Milli Məclisinə**
**13 may 2006-cı ildə keçirilən təkrar seçkilərin**
**Monitorinqinin nəticələrinə dair**

# <u>YEKUN HESABAT</u>

**<u>BAKI – İYUN, 2006</u>**

# MÜNDƏRİCAT

Xülasə
Səh. 3

Giriş Səh. 5

Seçkiqabaği siyasi mühit Səh.6

Qanunvericilik və hüquqi mühit Səh. 7

Seçicilərin qeydiyyati və seçici siyahilari Səh. 7

Seçkilərin İdarəolunmasi
Səh. 8

Namizədlərin irəli sürülməsi və qeydiyyati Səh. 10

Seçkiqabaği təşviqat kampaniyasi
Səh. 11

Seçki Günü
Səh. 14

Rəsmi Nəticələr, şikayətlərə baxilmasi və seçkidən sonra vəziyyət Səh. 20

Nəticələr və Tövsiyyələr
Səh. 22

## I. XÜLASƏ

Seçki Monitorinq Mərkəzi (SMM) Azərbaycanda azad və ədalətli seçkilər, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu ilə məşğul olan ən böyük yerli, bitərəf seçki müşahidə təşkilatıdır. SMM 2001-2005-ci illərdə Azərbaycan Respublikasında keçirilən əlavə parlament seçkiləri, referendum, prezident, bələdiyyə və parlament seçkilərini müşahidə edib.

SMM 6 noyabr 2005-ci ildə keçirilən parlament seçkilərində olduğu kimi bu seçkilərin davamı olaraq 13 may 2006-cı ildə 10 seçki dairəsində - 9 saylı Binəqədi ikinci, 31 saylı Suraxanı ikinci, 38 saylı Nizami (Gəncə) ikinci, 42 saylı Sumqayıt ikinci, 44 saylı Sumqayıt-Abşeron, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, 103 saylı Gədəbəy, 106 saylı Tovuz-Qazax-Ağstafa, 110 saylı Zaqatala və 119 saylı Ağdam kənd seçki dairəsindndə keçirilən təkrar parlament seçkilərinin Uzunmüddətli müşahidələrini həyata keçirib.

13 may 2006-cı ildə keçirilən təkrar seçkilərin vaxtı rəsmi elan olunduqdan sonra SMM 6 bölgə nümayəndəsi və 12 nəfər müşahidəçi ilə Uzunmüddətli müşahidəçiliyə başlayaraq, namizədlərin irəli sürülməsi və qeydiyyatı, seçici siyahıları, seçkiqabağı təşviqat dövrünü müşahidə edib. Monitorinq zamanı 10 seçki dairəsini əhatə etməklə müşahidələrin nəticələrinə dair həftəlik və aralıq hesabatlar hazırlanaraq yayılıb. Seçki günü isə SMM 10 seçki dairəsində 182 nəfər müşahidəçi və 10 seçki dairəsi koordinatoru ilə əməkdaşlıq edərək seçki məntəqələrinin açılmasını, səsvermənin keçirilməsi və səslərin sayılması prosesini, həmçinin Dairə Seçki Komissiyalarının fəaliyyətini müşahidə edib.

***SMM-in təkrar parlament seçkiləri üzrə müşahidələrinin nəticələri göstərir ki, bu prosesdə 6 noyabr 2005-ci ildə keçirilən parlament seçkiləri ilə müqayisədə ciddi irəliləyiş baş verməmiş və seçkilər azad və ədalətli olmamışdır. Təkrar seçkilərin keçirildiyi 10 seçki dairəsinin hər birində ciddi qanun pozuntuları qeydə alınmış, nəticədə seçkilər Azərbaycan Respublikasının milli qanunvericiliyinə və beynəlxalq standartlara cavab verməmişdir.***

### Seçki qanunu

6 noyabr 2005-ci ilin parlament seçkilərindən sonra ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Avropa Şurası Parlament Assambleyası, NATO Parlament Assambleyası və Avropa Parlamentinin birgə təşkil etdiyi Beynəlxalq müşahidə Missiyası bəyan etdi ki, seçkilər ATƏT və Avropa Şurası standartlarına uyğun keçirilməyib. ATƏT/DTİHB 30-dan artıq tövsiyyə irəli sürərək, Seçki məcəlləsi və seçkilərin təşkilinin təkmilləşdirilməsini təklif etdi və bu tövsiyyələri SMM dəstəklədi. Ancaq Azərbaycan hakimiyyəti təkrar parlament seçkilərindən öncə yerinə yetirilməsini təmin etmədi.

### Namizədlərin irəli sürülməsi və qeydiyyatı

SMM namizədlərin irəli sürülməsi və qeydiyyatı dövründə ciddi və kütləvi xarakter daşıyan qanun pozuntuları qeydə almayıb. Bu prosesdə hakimiyyətyönlü namizədlərin xeyrinə inzibati resurslardan

istifadə halları və yerli hakimiyyət nümayəndələrinin müdaxilə halları qeydə alınsa da, digər namizədlərin qeydiyyatı üçün problemlər yaradılmayıb.

**Seçkiqabağı təbliğat**

Namizədlərin seçkiqabağı təbliğat kampaniyası başladıqdan az sonra 10 seçki dairəsinin hər birində müxtəlif növ qanun pozuntuları müşahidə olunmağa başlayıb. Əsasən yerli icra hakimiyyətlərinin seçki prosesinə müdaxilələri, ayrı-ayrı namizədlərin sui-istifadə və inzibati resurslardan istifadə hallarına yol verməsi və namizədlərə bərabər şəraitin yaradılmaması qeydə alınıb.

Seçkiqabağı təşviqat dövründə bəzi seçki dairələrinin ərazilərində ayrı-ayrı namizədlərə onların təşkil etmək istədiyi seçkiqabağı kütləvi və dinc tədbirlərə icazə verilməyib.

**Seçici siyahıları**

Seçki gününədək və seçki günü SMM seçici siyahılarının tərtibi və yoxlanmaması üzrə vəziyyətin monitorinqini aparıb. Monitorinqin nəticələrinə görə, ölkə üzrə 6 noyabr seçkilərində olduğu kimi təkrar seçkilərin keçrildiyi 10 seçki dairəsinin hər birində seçici siyahılarında qanunun tələblərinə uyğun müvafiq dəqiqləşdirmələrin aparılmadığı qeydə alınıb. Bununla da minlərlə seçicinin adlarının seçici siyahılarında olmaması səbəbindən səsvermədə iştirakına məhdudiyyətlər yaranıb.

**Seçki günü**

SMM seçki günü seçki məntəqələrinin təşkili və açılışı zamanı bəzi hüquqi-texniki prosedurların həyata keçirilməsində ciddi məhdudiyyətlər və maneələr qeydə almayıb.Yalnız 4 seçki məntəqəsi seçki günü vaxtında fəaliyyətə başlamayıb, 38 seçki məntəqəsinin texniki təchizatı isə qanunauyğun qurulmayıb.
SMM-in müşahidəçiləri səsvermə zamanı seçicilərin adlarının seçici siyahılarında olmaması, səsverməyə xüsusi qrupların gətirilməsi, seçicilərin iradəsinə təzyiqlər, səsverməyə kənar müdaxilələr, müşahidəçilər və seçki komissiyalarına təzyiqlər, seçki qutularına saxta bülletenlərin atılması və sənədsiz seçicilərə bülletenlərinin verilməsi hallarını qeydə alıblar.

***SMM müşahidəçiləri seçki günü səsvermənin müşahidəsinin aparıldığı 213 seçki məntəqəsində aşağıdakı pozuntuları qeydə alıblar:***

- Seçicilərin iradəsinə təzyiq halları 93 seçki məntəqəsində qeydə alınıb;
- Sənədsiz seçicilərin səsvermədə iştirak halları 69 seçki məntəqəsində qeydə alınıb;
- Səsverməyə xüsusi qrupların gətirilməsi 118 seçki məntəqəsində qeydə alınıb;
- Namizədlərin xeyrinə təbliğat 73 seçki məntəqəsində müşahidə olunub;
- Səsvermənin gizliliyinin pozulması 79 seçki məntəqəsində qeydə alınıb;
- Başqasının əvəzinə səsvermə 62 seçki məntəqəsində qeydə alınıb;
- Yerli icra hakimiyyəti və polisin səsverməyə müdaxilə halları 65 seçki məntəqəsində qeydə alınıb;

**Səslərin sayılması**

Seçki günü səslərin sayılması prosesində seçki komissiyaları üzvləri və müşahidəçilərə MnSK üzvləri, yerli icra hakimiyyəti, polis əməkdaşları və namizədlərin tərəfdarlarının mənəvi-psixoloji və fiziki təzyiqləri baş verib. SMM-in müşahidəçiləri bu cür halları 76 seçki məntəqəsində qeydə alıblar.
Səsvermə başa çatdıqdan sonra səslərin sayılması zamanı ciddi qanun pozuntuları qeydə alınıb. SMM bu proses zamanı müşahidə aparılan 175 seçki məntəqəsindən 58 seçki məntəqəsində səslərin qeyri-şəffaf sayılmasını və yekun protokolların düzgün tərtib olunmamasını qeydə alıb. Qeyd edək ki, bu məntəqələrdə həmçinin səsvermənin nəticələrinin elan olunmaması müəyyən olunub.

SMM seçkidən sonra 164 seçki məntəqəsindən daxil olan yekun protokollarla MSK-nın "Seçkilər" İnformasiya Mərkəzinin internet səhifəsində dərc olunmuş rəsmi məlumatların müqayisəsini aparıb. Müqayisənin nəticələrinə görə, Məntəqə Seçki Komissiyasının tərtib etdiyi 11 yekun protokolla MSK-nın rəsmi nəticələri arasında uyğunsuzluq və ziddiyyət mövcuddur. Bu fərqlər isə hər bir seçki məntəqəsi üzrə səsvermədə iştirak edənlərin ümumi sayı, etibarlı səslərin sayı və ilk yerləri tutan namizədlərə verilən səslərin sayında müəyyən olunub.

**Seçkidən sonra**

Seçki günündən sonra qanunla müəyyən olunmuş müddətdə MSK-da dairə seçki komissiyalarının seçkilərin nəticələri üzrə protokollarının yoxlanılması başlayıb. Ancaq bu proses zamanı seçki dairələrindən daxil olmuş protokollarla yanaşı əlavə sənədlər (müşahidəçilərin aktları, şikayət və rəylər) araşdırılmayıb, yoxlamalar ancaq rəsmi protokollar əsasında aparılıb.

SMM-in apardığı araşdırmalara əsasəm MSK-nın fəaliyyətindən (hərəkət və hərəkətsizliyindən) Apellyasiya Məhkəməsinə 12 namizəd şikayət təqdim edib. Ancaq bu şikayətlərə Apellyasiya Məhkəməsində səthi baxılmış və şikayətlərin heç biri təmin olunmamışdır.

MSK-nın təqdim etdiyi sənədlər əsasında Konstitusiya Məhkəməsi 5 iyun 2006-cı ildə plenum keçirərək, təkrar parlament seçkilərinin nəticələrini müzakirə edib və 10 seçki dairəsində nəticələri etibarlı hesab etməklə təkrar parlament seçkilərinin nəticələrini təsdiq edib.

SMM-in 13 may 2006-cı ildə keçirilən təkrar parlament seçkiləri üzrə monitorinqinin nəticələri göstərir ki, bu seçkilər ərəfəsində siyasi mühit azad və ədalətli seçkilərin keçirilməsinə normal şəraiti təmin etməyib. Seçkilərdə Mərkəzi seçki Komissiyası da daxil olmaqla dairə seçki komissiyaları birtərəfli mövqe nümayiş etdirməyib və icra hakimiyyəti orqanlarının birbaşa və ya dolayısı nəzarəti altında fəaliyyət göstəriblər.

SMM hesab edir ki, 10 seçki dairəsində 13 may 2006-cı ildə keçirilən təkrar parlament seçkiləri Azərbaycan xalqının azad iradəsini ifadə etməyib və ölkənin siyasi münasibətlərindəki gərginliyi azaltmayıb. Bu cür vəziyyəti aradan qaldırmaq üçün SMM hakimiyyətin ölkədə siyasi etimad yarada biləcək ciddi tədbirlər həyata keçirilməsi, xüsusilə seçki qanunvericiliyinin təkmilləşdirilməsini, seçki hüquqlarının pozulmasına görə məsuliyyət daşıyan şəxslərin cəzalandırılmasını zəruri sayır.

## II. GİRİŞ

Seçki Monitorinq Mərkəzi (SMM) Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır.

SMM 13 may 2006-cı ildə keçirilən təkrar parlament seçkiləri ilə bağlı 6 bölgədə - Bakı, Gəncə, Şəki, Sumqayıt, Yevlax və Cəlilabad şəhərlərində öz nümayəndəlikləri vasitəsilə fəaliyyət göstərib və seçkilərin keçirildiyi bütün bölgələri əhatə edib.

SMM indiyədək 2001-2003-cü illərdə keçirilən əlavə parlament seçkilərini, 24 avqust 2002-ci ildə keçirilən referendumu, 15 oktyabr 2003-cü ildə keçirilən prezident, 17 dekabr 2004-cü ildə keçirilən bələdiyyə və 6 noyabr 2005-ci ildə keçirilən parlament seçkilərini müşahidə edib.

SMM ATƏT-ə 16 dövlətdən üzv olan 18 QHT-ni özündə birləşdirən Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsinin (ENEMO) üzvüdür.

SMM nümayəndələri beynəlxalq müşahidə missiyaları tərkibində Albaniya, Belarus, Norveç, Ukrayna, Gürcüstan, Qırğızıstan və Qazaxstanda keçirilən prezident, parlament seçkiləri və referendumu müşahidə ediblər.

Təkrar parlament seçkilərinin vaxtı rəsmi elan olunduqdan sonra SMM Uzunmüddətli müşahidəni seçkilərin keçirildiyi 10 seçki dairəsinin hər birində həyata keçirib. Uzunmüddətli müşahidə 2006-cı ilin fevral ayından mayın 11-dək aparılıb və bu dövrdə aparılan müşahidələrin nəticələrinə dair 8 dəfə həftəlik hesabatlar hazırlanaraq yayılıb. Eyni zamanda təkrar parlament seçkilərinin ilkin mərhələsi – namizədlərin irəli sürülməsi və qeydiyyatı, seçkiqabağı təbliğat kampaniyasının monitorinqinə dair ilkin Hesabat hazırlanaraq ictimaiyyətə təqdim edib.
Seçki günü monitorinqə hazırlıqla bağlı SMM ölkə üzrə 212 nəfərə hüquqi-texniki yardım göstərərək, onların Mərkəzi və dairə seçki komissiyalarında müşahidəçi kimi qeydiyyatına kömək edib. Qeydiyyatdan keçmiş müşahidəçilərə ölkə üzrə 11 təlim keçirilib.
Seçki günü isə SMM 10 seçki dairəsi üzrə 213 seçki məntəqəsində 182 nəfər müşahidəçi və 10 nəfər koordinator vasitəsilə seçki məntəqələrinin açılmasını, səsvermənin təşkili və səslərin sayılması prosesini, həmçinin Dairə Seçki Komissiyalarının fəaliyyətini müşahidə edib.
SMM-in müşahidəçiləri seçki günü baş vermiş qanun pozuntularına dair 300 nüsxə akt, 8 nüsxə şikayət və 47 nüsxə rəy tərtib edərək, bu sənədlərin bir qismini məntəqə və dairə seçki komissiyalarına təqdim ediblər. Sonradan isə bu sənədlər əsasında nəticələri şübhə doğuran 127 seçki məntəqəsi üzrə materiallar MSK-ya araşdırılmaq üçün göndərilib.

## III. SEÇKIQABAĞI SIYASI MÜHIT

Hüquqi-siyasi sisteminə görə prezident respublikası olan Azərbaycanda dövlət hakimiyyətinin bölünməsi 3 orqan – Prezident (icraedici), Məhkəmə (nəzarət) və Milli Məclis (qanunverici -parlament) arasında müəyyən olunur. Ölkədə yerli İdarəetmə orqanları – bələdiyyələrə, prezident və parlamentə seçkilər hər 5 ildən bir keçirilir.
Milli Məclisə müstəqillik dövründə 2 dəfə - 1995 və 2000-ci illərdə seçkilər keçirilib. 24 avqust 2002-ci ilədək, yəni Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklar barədə referendum keçirilənədək parlamentə seçkilər qarışıq sistem üzrə - mojaritar və proporsional sistem üzrə keçirilib. Bu baxımdan 6 noyabr 2005-ci ildə keçirilən parlament seçkiləri ölkə tarixində mojaritar sistem əsasında 125 yer uğrunda keçirilən ilk seçkilər oldu.

6 noyabr 2005-ci ildə keçirilən parlament seçkilərindən sonra ATƏT DTİHB, Avropa Şurası Parlament Assambleyası, NATO parlament Assambleyası, Avropa Parlamenti ilə birgə təşkil olunan Beynəlxalq Müşahidə Missiyası bu seçkilərin ATƏT və Avropa Şurası standartlarına cavab vermədiyini bəyan edib.

Son parlament seçkilərindən sonra MSK-nın həm yerli, həm də beynəlxalq ictimaiyyətin qınaqlarını nəzərə alaraq, daxil olmuş şikayətlərin obyektiv araşdırılacağına ümmid edilsə də, 23 noyabr 2005-ci ildə MSK-nın parlament seçkilərinin nəticələrini 121 seçki dairəsi üzrə rəsmi təsdiq edib Konstitusiya Məhkəməsinə göndərdi. 2 dekabr 2005-ci ildə Konstitusiya Məhkəməsinin plenumunda MSK-nın təqdim etdiyi protokol və digər sənədlər müzakirə olunaraq 115 seçki dairəsində səsvermənin nəticələri etibarlı sayılıb rəsmi təsdiq olundu.
Qeyd edək ki, 10 seçki dairəsində təkrar seçkilərin keçirilməsinin parlament seçkilərinin siyasi nəticələrini dəyişməyəcəyini bildirən əksər müxalif siyasi partiyalar əvvəlcədən bu seçkiləri boykot edəcəklərini bəyan etdilər. Xatırladaq ki, Konstitusiya Məhkəməsinin qərarı ilə parlament seçkilərinin nəticələri 115 seçki dairəsində təsdiq olunduqdan sonra yeni parlamentin siyasi tərkibi isə aşağıdakı kimi olmuşdur:

• Yeni Azərbaycan Partiyası – 56 yer;

• "Azadlıq” siyasi partiyalar bloku -6 yer;
• “Yeni siyasət” seçki bloku – 2 yer;
• Ana Vətən Partiyası – 2 yer;
• Vətəndaş Həmrəhliyi Partiyası – 2 yer;
• Liberal Partiyası - 1 yer;
• Bitərəflər – 40 yer;
• Digər siyasi partiyalar – 6 yer;

Yeni parlamentin 2 dekabr 2005-ci ildə keçirilən ilk iclasına “Azadlıq” blokuna daxil olan partiyaların təmsilçiləri və Milli Birlik Hərəkatının sədri Lalə-Şövkət Hacıyeva qatılmayıblar. Hər iki siyasi qüvvəni təmsil edən şəxslər yeni parlamenti qeyri-legitim saydıqlarını və Milli Məclisdə iştirak etməyəcəklərini bəyan ediblər. “Azadlıq” blokuna daxil olan partiyalar və Milli Birlik Hərəkatının liderləri həmçinin Konstitusiya Məhkəməsinin qərarı ilə 6 seçki dairəsində səsvermənin nəticələrinin ləğv olunmasını ədalətsiz sayaraq, təkrar seçkilərdə iştirakdan imtina etdilər.

Qeyd edək ki, təkrar seçkilərdə və parlamentin işində iştirak məsələsi uzunmüddət müxalif siyasi partiyalar arasında müzakirə olundu və nəticədə Müsavat Milli İstiqlal, Ümid və digər siyasi partiyalar təkrar parlament seçkilərinə qatılacağını bildirdi. Bundan sonra isə Müsavat partiyası “Azadlıq” blokunu tərk etdi və bu siyasi blok Milli İstiqlal, Liberal, Xalq Cəbhəsi və Demokrat Partiyalarının iştirakı ilə yenidən formalaşdı.

## IV. QANUNVERİCİLİK VƏ HÜQUQİ MÜHİT

6 noyabr 2006-cı il parlament seçkilərinin beynəlxalq təşkilatlar tərəfindən ciddi tənqidlərə məruz qalması və Avropa Şurasında Azərbaycan deputatlarının mandatının şərtlərlə təsdiq edilməsi məntiqlə belə bir qənaətə gəlməyə imkan verirdi ki, 13 may təkrar seçkilərində müəyyən irəliləyişlər əldə ediləcək Bu seçki qanunvericiliyinin təkmilləşdirilməsində də özünü göstərəcək. Seçki ərəfəsində qanunvericilikdə müəyyən dəyişikliklər aparılacaq və nəticə etibarı ilə bu seçkilərdə ciddi irəliləyişlər olacaq. Ancaq 13 may seçkiləri ərəfəsində hakimiyyət rəsmilərinin açıqlamaları göstərdi ki, hakimiyyət seçki qanunvericiliyində hətta kiçik dəyişikliklərin aparılmasında da, maraqlı deyil.
Qeyd edək ki, 1 fevral 2006-cı ildə ATƏT DTİHB son parlament seçkilərinin müşahidələrinə dair Yekun Hesabatını açıqladı. Bu hesabatda irəli sürülən 30 tövsiyyənin bir çoxunu – seçki komissiyalarının formalaşdırılması, seçki iştirakçılarının şikayətləri, seçici siyahılarının tərtibi, səsvermə və səslərin sayılması prosedurlarına dair təklifləri təkrar seçkilərə qədər həyata keçirmək mümkün görünsə də, ölkə hakimiyyəti buna səy göstərmədi.
Beləliklə nəticə etibarı ilə 13 may seçkiləri ərəfəsində ATƏT və Avropa Şurası və seçkilərin monitorinqini aparan bir sıra yerli təşkilatlar, o cümlədən SMM tərəfindən irəli sürülən təkliflər nəzərə alınmalıdır seçki qanunvericiliyində dəyişikliklər və təkmilləşdirmələr aparılmalı. Əvvəlki seçkilərdə olduğu kimi bu seçkilər də eyni hüquqi baza əsasında keçirildi. Bu isə azad və ədalətli keçirilməsi üçün təkmil və demokratik hüquqi bazanı təmin etmədi.

## V. SEÇİCİLƏRİN QEYDİYYATI VƏ SEÇİCİ SİYAHILARI

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi Təqvim Planına əsasən seçici sıyahılarının dəqiqləşdirilməsi, siyahıların seçicilərin tanış olmaları üçün təqdimatı seçki gününə 65 gün qalmış, yəni 9 mart 2006-cı ilədək başa çatdırılmalı idi.
SMM seçici siyahılarının dəqiqləşdirilməsi üzrə monitorinqi 10 seçki dairəsində həyata keçirib və bu dairələrdən daxil olmuş məlumatlar, şikayətlər və aktlar seçicilərin qeydiyyatına dair təhlillər aparmağa imkan verir.

SMM-in uzunmüddətli müşahidəçilərinin təqdim etdiyi məlumatlar göstərir ki, seçici siyahılarında qeyri-dəqiqliklər seçki gününədək davam edib və bəzi seçki dairələrində bu problem daha kəskin şəkildə olub. SMM-in uzunmüddətli müşahidəçilərinin məlumatlarına əsasən, seçki gününədək 10 seçki dairəsi üzrə 76 seçki məntəqəsində seçici siyahılarının dəqiqləşdirilməsi aparılmayıb.

Seçki gününədək bəzi seçicilər hələ də seçici vəsiqələri almadıqları halda, müəyyən şəxslərə bir neçə vəsiqə göndərilib. Seçki dairələrinin əksəriyyətində məntəqə seçki komissiyaları seçici vəsiqələrinin paylanılmasını pərakəndə və sistemsiz formada həyata keçirib. Bəzi seçki məntəqələri isə iş günü olmasına baxmayaraq, bu müddətdə fəaliyyət göstərməyib və bununla da seçicilərin öz adlarının seçici siyahılarında dəqiqləşdirmələri mümkün olmayıb.
Müşahidələr göstərir ki, bəzi seçicilər qeydə alındıqları məntəqələrin dislokasiyası üzrə yaşamadıqları halda qeydə alınıblar. Bir sıra hallarda siyahılarda hətta vəfat etmiş şəxslərin adlarının olması hallarına da rast gəlinib. Ancaq müşahidələr göstərir ki, ən böyük çatışmazlıq seçici siyahılarına seçki məntəqələrinin əhatə etdiyi ərazidə yaşayan şəxslərin adlarının salınmaması və bu yöndə seçici siyahılarının dəqiqləşdirmə aparmaması ilə bağlıdır.

***Bu cür hallar üzrə müşahidələrə dair misallar:***

• Martın 31-ə qədər 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 1, 2, 3, 4, 5, 9 və 15 saylı məntəqələrində, 9 saylı Binəqədi ikinci seçki dairəsinin 3 saylı seçki məntəqəsində seçici siyahılarının dəqiqləşdirilməsi aparılmayıb.

• 103 saylı Gədəbəy seçki dairəsinin 1,2, 3, 4, 11, 12, 15, 17 və 21 saylı seçki məntəqələrində dəqiqləşdirilməmiş seçici siyahısı asılıb.

• 31 saylı Suraxanı ikinci seçki dairəsinin bütün məntəqələrində seçici siyahıları martın 29-da asılıb;

• Aprelin 26-da 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 27 saylı məntəqəsində Paşayeva Mehriban Salman qızının adı MnSK-ya müraciət etməsinə baxmayaraq seçici siyahısına salınmayıb

## VI. SEÇKİLƏRİN İDARƏ OLUNMASI

SMM-in təkrar parlament seçkilərinin bütün mərhələləri üzrə müşahidələri göstərir ki, aşağı və yuxarı seçki komissiyaları bitərəf və müstəqil fəaliyyət göstərməyiblər.
Seçki komissiyalarının fəaliyyəti ilə bağlı SMM-ə daxil olan məlumatların təhlili göstərir ki, komissiyaların fəaliyyətində müsbət mənada dönüş müşahidə olunmayıb. Ancaq bununla belə kənar təsirlər (yerli icra hakimiyyətləri və bələdiyyələr) olmazsa, həmçinin MSK və ictimaiyyətin dəstəyi sayəsində seçki komissiyalarının fəaliyyətini bu seçkilər dövründa təkmilləşdirmək və qanunun tələblərinə uyğunlaşdırmaq mümkün idi.

Seçki komissiyalarının seçkiqabağı təşviqat dövründə yol verdiyi ən böyük qanun pozuntuları təşviqatın qanunauyğun aparılmasına nəzarət olunmamasıdır. Müşahidələr göstərir ki, seçki dairələrinin demək olar ki, böyük əksəriyyətində seçkiqabağı təşviqatın aparılma qaydalarının pozulması kütləvi xarakter alıb. Ancaq narahatlıq doğuran haldır ki, nə dairə seçki komissiyaları, nə də Mərkəzi Seçki Komissiyası bu cür qanun pozuntularının qarşısının alınması üçün ciddi tədbirlər aparmayıb və nəticədə Seçki Məcəlləsinin 88.7 və 113-cü maddələrinin tələbləri təmin edilməmişdir.

Seçki komissiyalarının, xüsusən də Məntəqə Seçki Komissiyalarının fəaliyyəti ilə bağlı narahatlıq doğuran digər hal təkrar seçkilər dövründə komissiya üzvlərinin öz vəzifə səlahiyyətlərini yerinə yetirməməsi bəzi hallarda isə iş yerlərində olmamasıdır. **SMM-in uzunmüddətli müşahidəçilərinin məlumatlarına əsasən, seçkilərə 1 ay qalanadək 10 seçki dairəsi üzrə 218 Məntəqə Seçki komissiyası iş vaxtlarında fəaliyyət göstərməyib.**
Seçici siyahılarının dəqiqləşdirilməsi və seçici vəsiqələrinin paylanması, Həmçinin müşahidəçilərin qeydiyyatı prosesində də bəzi hallarda DSK və MnSK üzvlərinin öz hüquq və vəzifələrini yüksək səviyyədə bilmədiyi müşahidə olunub. SMM-in müşahidəçiləri 115 seçki dairəsi üzrə 756 seçki məntəqəsində seçici vəsiqələrinin paylanılması ilə bağlı MnSK üzvlərinin passivliyini qeydə alıb.
Seçkiqabağı təşviqatın həyata keçrildiyi dövrdə isə seçki komissiyaları bütün namizədlər, siyasi partiyalar və siyasi partiyaların bloklarına münasibətdə bərabər münasibət nümayiş etdirə bilməyiblər. Seçki günü və seçkidən sonra isə yerli icra hakimiyyətlərinin və polisin müdaxilələrinin qarşısının alınması, habelə bitərəfliyin nümayiş etdirilməsinə DSK və MnSK üzvləri real tədbirlər həyata keçirməyiblər. Əksinə həm seçkiqabağı təbliğat, həm də səsvermə və səslərin sayılması prosesi seçki komissiyalarının öz vəzifə səlahiyyətlərinin icrasına görə hərəkətsizliyi ilə bağlı faktlarla müşayiət olunub.

SMM-in apardığı müşahidələr göstərir ki, seçki məntəqələrinin əksəriyyətində qanunazidd olaraq MnSK üzvləri 2 vəzifədə - həm əvvəlki iş yerlərində, həm də seçki komissiyalarında çalışıblar. Bununla da, bəzi MnSK üzvləri Seçki Məcəlləsinin 17-ci (seçki komissiyası üzvünün statusu), 30-cu (dairə seçki komissiyalarının təşkili), 36-cı (məntəqə seçki komissiyalarının təşkili) maddələrini pozaraq, iki vəzifədə, öz əvvəlki iş yerlərində və seçki komissiyalarında rəhbər vəzifədə çalışıblar.

***<u>Seçki komissiyalarının tərkibi və fəaliyyətinə dair missallar</u>***

• Aprelin 27-də 44 saylı Sumqayıt –Abşeron Seçki Dairəsinin 13 və 14 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Aprelin 26-da 9 saylı Binəqədi ikinci seçki dairəsinin 3, 4, 8, 10, 15, 30 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Aprelin 26-da 110 saylı Zaqatala seçki dairəsinin 55 saylı MnSK-sı fəaliyyət göstərməyib;

• Martın 3-4-də 103 saylı Gədəbəy seçki dairəsinin 21, 22, 35 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Aprelin 4-5-də 106 Tovuz-Qazax-Ağstafa sylı seçki dairəsinin 2 və 4 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Aprelin 6-da 9 saylı Binəqədi ikinci seçki dairəsinin 9 MnSK-sı fəaliyyət göstərməyib;

• Aprelin 4-də 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 3 və 14 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Martın 23-də 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 1, 5, 9, 14 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Martın 30-da 44 saylı Sumqayıt-Abşeron Seçki Dairəsinin 2, 3, 11, 12, 13, və 14 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Martın 31-də 9 saylı Binəqədi ikinci seçki dairəsinin 4 və 14 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Martın 15-də 106 saylı Tovuz Qazax-Ağstafa seçki dairəsinin 1, 14, 12, 15, 22 və 23 saylı MnSK-ları fəaliyyət göstərməyiblər;

• Martın 15-də 9 saylı Binəqədi ikinci seçki dairəsinin 3, 15, 16, 17, 19 və 20 saylı MnSK-ları fəaliyyət göstəeməyiblər;

• Martın 16-da 44 saylı Sumqayıt –Abşeron Seçki Dairəsinin 11, 12 saylı MnSK-ları fəaliyyət göstəeməyiblər;

• Martın 14-də 9 saylı Binəqədi ikinci seçki dairəsinin 30 saylı MnSK-sı fəaliyyət göstərməyiblər;

## VII. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLÜMƏSİ VƏ QEYDİYYATI

Seçki Məcəlləsinə və MSK-nın təqvim planına əsasən sənədlərini Dairə Seçki Komissiyalarına (DSK) təqdim etmiş namizədlərin qeydə alınması prosesi 4 mart 2006-cı il saat 18.00-dək davam edib.

Mərkəzi Seçki Komissiyasının (MSK) rəsmi məlumatına görə, təkrar seçkilərdə 218 nəfərin namizədliyi irəli sürülüb.Bunlardan 215 nəfəri imza vərəqini götürüb. 196 nəfər seçici imzalarını və digər seçki bildiriş sənədlərini müvafiq dairə seçki komissiyalarına təqdim edib. 17 nəfər namizədliyini geri götürüb, 21 nəfər isə imtina edib. Cəmi 158 nəfəri qeydə alınıb. Sonradan 28 nəfər öz namizədliyini geri götürüb. 6 nəfərin isə namizədliyi Apellyasiya Məhkəməsi tərəfindən ləğv edilib. Seçkilərdə 124 nəfər namizəd iştirak edib.

SMM-ə daxil olan məlumatların ümumiləşdirilməsi göstərir ki, namizədliyin qeydə alınmaması ilə bağlı Mərkəzi Seçki Komissiyasına və Apellyasiya Məhkəməsinə kütləvi müraciətlər edilməyib. Proses ümumən sakit aparılıb və bu prosesdə namizədlər ciddi problemlərlə qarşılaşmayıb. Namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesində seçkilərə ciddi təsir göstərə biləcək kütləvi qanun pozuntuları müşahidə olunmayıb. Bu sahədə əsas problemlər namizədlərin müdafiəsi üçün seçici imzalarının DSK-larda yoxlanılması zamanı qeydə alınıb. Belə ki, seçici imzaları yoxlanılarkən bu proses şəffaf olmayıb və nəticədə seçici imzalarının saxta olmasına dair ekspertlərin verdiyi rəylər mübahisə və narazılıqlar yaradıb.

***Bu cür hallar üzrə müşahidələrə dair misallar.***

• 44 saylı Sumqayıt-Abşeron Dairə Seçki Komissiyası həmin dairədən namizədliyini irəli sürmüş Dünyamin Əhmədovun qeydə alınmaq üçün təqdim etdiyi 550 imzadan 390-nın saxta olduğunu iddia edərək onun namizədliyini qeydə almayıb. D.Əhmədovun verdiyi məlumata görə, DSK-nın ekspertləri hətta onun ailə üzvlərinin imzalarını da, saxta çıxarıblar. Qeyd edək ki, hər bir imza vərəqində cəmi 50 imza yeri olduğu halda, DSK namizədin 3 saylı imza vərəqində 75-ci imzanın saxta olduğu barədə rəy verib.

• 31 saylı Suraxanı ikinci seçki dairəsində YAP-ın üzvü və keçmiş deputat Əli Əlirzayevin namizədliyi qeydə alınmayıb. Buna səbəb kimi onun DSK-ya təqdim etdiyi sənədlərdə öz maaşını gizlətməsi göstərilib. Ə.Əlirzayev isə bunu inkar edərək qərarın qəbul olunmasının arxasında siyasi məqsədlər olduğunu bildirib. O, qeyd edib ki, YAP həmin dairədən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyevin namizədliyini dəstəklədiyi üçün onun namizədliyinin qeydə alınmasını arzuolunmaz hesab edib. Ə.Əlirzayevin bununla bağlı SMM-ə bildirib ki, həmin iradlar ona çox gec, imza vərəqlərinin təhvil verilməsi üçün müəyyənləşdirilmiş sonuncu gün bildirilib. Bundan sonra o, son bir ildə çalışdığı iş yerlərindən müvafiq arayışları yenidən DSK-ya təqdim etsə də, DSK bunu nəzərə almayıb onun iştirakı olmadan namizədliyinin qeydə alınmaması barədə qərar çıxarıb.

Bu cür hallar isə Seçki Məcəlləsinin 17.3 –cü (seçki komissiyalarının fəaliyyətinə müdaxilələrin yolverilməzliyi), 17.6.2 – 17.6.4-cü (seçki komissiyası üzvlərinin hamıya bərabər münasibət göstərməsi, qərəzsiz olması, ayrı-seçkiliyə yol verilməməsi), 60-cı (namizədin qeydə alınması) maddələrinin tələblərinin pozulmasıdır.

## VIII. SEÇKİQABAĞI TƏŞVİQAT KAMPANİYASI

Mərkəzi Seçki Komissiyasının verdiyi məlumata görə, seçkiqabağı təşviqat kampaniyasına 158 deputatlığa namizədlə start verilib. Seçki kampaniyasına qatılmış şəxsdən 6 nəfərinin namizədliyini Apellyasiya Məhkəməsi ləğv edib, 28 nəfər isə namizədliyini geri götürüb. Beləliklə, seçki günü səsvermə 124 nəfər namizədin arasında keçirilib.

Bu mərhələ ilə bağlı aparılan müşahidələr üzrə SMM-ə daxil olan məlumatların ümumiləşdirilməsi göstərir ki, təşviqat kampaniyasında ümumilikdə fəallıq nümayiş etdirilməyib. Kampaniyanın gedişində bir sıra pozuntular qeydə alınsa da, ümumilikdə seçkiqabağı təşviqatın pozulmasına gətirib çıxaracaq kütləvi hallar baş verməyib.

Ancaq bu mərhələ üzrə daxil olan məlumatların təhlili göstərir ki, namizədlərin irəli sürülməsi və qeydiyyatı mərhələsi ilə müqayisədə seçkiqabağı təşviqat kampaniyasında ciddi qanun pozuntularına yol verilib.

***Bu mərhələ üzrə yol verilmiş qanun pozuntularını aşağıdakı qaydada qruplaşdırmaq olar.***

**Seçkiqabağı təşviqatda sui-istifadə hallarına yol verilməsi:**

Təkrar parlament seçkiləri keçirilən bütün seçki dairələrində 6 noyabr 2005-ci ildə keçirilmiş parlament seçkilərində olduğu kimi bir sıra namizədlərin seçicilərin rəğbəti və dəstəyini müxtəlif qanunsuz vasitələrlə əldə etmək halları müşahidə olunub. Bu cür hallar əsasən təbliğat kampaniyası başladıqdan 1-2 həftə sonra artıb və tədricən kütləvi xarakter daşıyıb. Müşahidənin həyata keçirildiyi seçki dairələrinin əksəriyyətində bəzi namizədlər seçiciləri ələ almaq vasitələri kimi onlara əvəzsiz xidmətlər göstərib və bir sıra hallarda isə hətta pul paylayıblar. Bu prosesdə həmçinin həyətlərin və məhəllələrin abadlaşdırılması, habelə məhəlli yollarının təmiri işləri də kütləvi xarakter daşıyıb. Bütün bunlar isə Seçki Məcəlləsinin **Seçkiqabağı təşviqatda sui-istifadə hallarının yolverilməzniyinə dair 88.4.1 – 88.4.5 –ci maddələrinin tələblərinin pozulmasıdır.**

***Bu cür hallar üzrə müşahidələrə dair misallar:***

• 42 saylı Sumqayıt ikinci seçki dairəsindən deputatlığa namizəd Məcid Kərimov seçicilərlə görüş keçirəcəyi həyətləri əvvəlcədən təmir etdirib. Sumqayıt şəhəri 2-ci mikrorayonda 7/11$^a$ və 9/17 saylı binaların həyət yollarını asfalt döşətdirib və xeyir-şər evlərini təmir etdirib. Martın 30 da seçicilərlə keçirdiyi görüşündə isə o, əhalinin problemini indidən həll etdiyini və kimə iş lazım olarsa müraciət etməsini bildirib.

Sumqayıt şəhər 41-ci məhəllədəki Səthi Aktiv Maddələr Zavodunun 1 saylı, Sintez Kauçuk Zavodunun 4 saylı, Üst Trikolaj Fabrikinin 5 saylı yataqxanalarının sakinlərinin verdiyi məlumatlara görə, Məcid Kərimovun göstərişi ilə bu yataqxanaların damları təmir olunub. Həmin yataqxanada yaşayan seçicilərə isə 100 000 manat təklif etməklə səslərini Məcid Kərimova vermələri xahiş olunub.

• 31 saylı Suraxanı ikinci seçki dairəsindən namizədliyini irəli sürmüş Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev dairə ərazisində yeni yollar çəkdirib. Yeni yolların çəkilməsi əsasən məhəllədaxili

ərazilərdə həyata keçirilib. Yolların çəkilməsi əsasən aşağıdakı ünvanlarda aparılıb: Yeni Günəşli qəs.A/B massivi, bina 14-16, V massivi, bina 5.

• Martın 15-də 9 saylı Binəqədi ikinci seçki dairəsinin 1 və 2 saylı seçki məntəqələrinin ərazisində yerləşən (Azadlıq pr.6) məhəllələrdə həmin seçki dairəsindən deputatlığa namizəd Elşad Abdullayevin nümayəndələri seçicilərlə görüşüb. Görüşdə iştirak edən şəxslərə bildirilib ki, deputatlığa namizədin nəzərdə tutulan gələcək görüşlərinə əlavə adam gətirəcək şəxslərə pul veriləcək.

• 44 saylı Sumqayıt-Abşeron dairəsinin namizədi olan Baba Əli oğlu Tağıyevin təbliğatı Sumqayıt şəhəri 17-ci mikrorayon 14 saylı Mənzil istismar Sahəsi (MİS) və 18-ci mikrorayon 12 saylı MİS işçiləri tərəfindən aparılıb. Bundan Başqa həmin namizəd 17-ci mikrarayonda 22, 23 saylı binaların ətrafında asfalt örtüyü çəkdirib, bir neçə xeyr-şər evini isə təmir etdirib.

**Seçkiqabağı təşviqatda inzibati resurslardan istifadə olunmuş və kənar müdaxilələr;**
Müşahidələr göstərir ki, seçki dairələrinin hamısında bəzi namizədlər inzibati resurslardan istifadə hallarına yol veriblər. Bu cür hallar əsasən yerli hakimiyyət nümayəndələrinin inzibati resurslardan ayrı-ayrı namizədlərin xeyrinə istifadəsi yönündə qeydə alınıb.
Məlumatların təhlili göstərir ki, son parlament seçkilərində olduğu kimi təkrar parlament seçkilərin bu mərhələsində də yerli hakimiyyət orqanlarının nümayəndələrinin həm seçki komissiyalarının fəaliyyətinə, həm də ümumilikdə seçkiqabağı təşviqatın gedişinə müdaxilələrə yol veriblər. Bu cür müdaxilələr bir sıra hallarda birbaşa, əksər hallarda isə dolayısı ilə həyata keçirilib. Həmin prosesdə yerli icra hakimiyyəti orqanlarının təmsilçiləri ilə yanaşı yerli təhsil, maliyyə və digər dövlət orqanı nümayəndələri də iştirak ediblər. Bu cür hərəkətlər Seçki Məcəlləsinin 17.4-cü (dövlət və bələdiyyə orqanlarının seçkilərə müdaxilələrinin yolverilməzliyi) maddəsinin tələblərinin pozulmasıdır.

***Bu cür hallar üzrə müşahidələrə dair misallar:***

• Martın 24-də saat 11.30-da Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsindən deputatlığa namizəd Asəf Hacıyevin müəllim və tələbə heyəti ilə görüşü keçirilib. Görüş zamanı çıxış edən rektor Məmmədtağı Cəfərov hamını seçkilərdə Asəf Hacıyevə səs verməyə çağıraraq həmin namizədin təbliğatını aparıb. Aprelin 7-də isə Gəncə şəhər Gülüstan qəsəbəsində də, adı çəkilən namizədin seçicilərlə görüşü keçirilib. 23 saylı Uşaq bağçasının müdirəsi bağçanın işçilərini Asəf Hacıyevin görüşünə getməyə təhrik edib. Etiraz edən işçilərə isə bildirib ki, bunu Gəncə şəhər təhsil şöbəsinin müdiri Cəlal Fətullayev tapşırıb. Məlumatı SMM-in müşahidəçisinə həmin bağçanın işçiləri veriblər.

• Aprelin 12-də 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsindən deputatlığa namizəd İlyas İsmayılovun Əkbər Cəfərov adına Mədəniyyət Evində görüşü təşkil edilib. Görüşdə Tovuz rayon səhiyyə, təhsil işçiləri, məntəqə seçki komissiyasının üzvləri və sədrləri iştirak ediblər. Tovuz rayon Xəstəxanasının baş həkimi Hüseynqulu Məmmədov görüşdə çıxış edərək öz işçilərini İlyas İsmayılova səs verməyə çağırıb. Bu dairə üzrə Aşağı Öysüzlü kənd məktəbində fəaliyyət göstərən 9 saylı seçki məntəqəsinin sədri, həmçinin həmin məktəbin direktoru Qəmbər Həsənov deputatlığa namizəd İlyas İsmayılovla məktəb müəllimlərinin və şagirdlərinin görüşünü keçirib. O, görüş iştirakçılarını İ.İsmayılova səs verməyə çagırıb.

• Cəlilabad rayonu Göytəpə ərazi icra nümayəndəsi Eldar Ağayev, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən deputatlığa namizəd Fəzail İbrahimlinin seçki qabağı təbliğat kampaniyasında iştirak edib. Belə ki, Eldar Ağayev seçicilərlə görüşün təşkil olunmasında və seçicilərin görüşə gəlmələrində Fəzail İbrahimliyə köməklik göstərib və onun təbliğatını aparıb.

• Aprelin 7-dən etibarən Yeni Azərbaycan Partiyasının (YAP) 119 saylı Ağdam kənd seçki dairəsindən deputatlığa namizədi olan Bəxtiyar Sadıqovun təşviqat plakatlarının yapışdırılması başlayıb və bu prosesdə yerli icra hakimiyyətinin və bələdiyyələrin aşağıdakı nümayəndələri iştirak ediblər:
- Quzanlı qəsəbə Bələdiyyəsinin sədri Çingiz Quliyev;
- Quzanlı qəsəbəsi üzrə Ərazi icra nümayəndəsi Fikrət İslamov,
-Qaradağlı kəndi Ərazi icra nümayəndəsi Arzuman Muradov (Az 10 BG 111 markalı şəxsi avtomobilindən istifadə edib);
- Üçoğlan kəndi Ərazi icra nümayəndəsi Asif Əliyev;
- Çəmənli kəndi Ərazi icra nümayəndəsi Allahverən Əliyev;
- Quzanlı Çadır Şəhərciyi Ərazi İcra nümayəndəsi Afina Əliyeva;

•Mayın 5-də saat 11-də 103 saylı Gədəbəy seçki dairəsindən deputatlığa namizəd Rafiq Məmmədhəsənov Gədəbəy rayon Mədəniyyət evində seçicilərlə görüş keçirib.Görüşü İcra hakimiyyəti ərazi idarəetmə şöbəsinin müdürü, Yap-ın sədri Ramazan Muradov təşkil edib. Görüşdə müəllimlər, idarə və müəssisə rəhbərləri, Yap-ın üzvləri iştirak edib. Çıxış edən Ramazan Muradov tabeçiliyində olan işçiləri və digər seçiciləri Rafiq Məmmədhəsənova səs verməyə çağırıb.

**Seçkiqabağı təşviqatda hamı üçün bərabər şəraitin təmin edilməməsi:**
SMM-in müşahidələrinə əsasən 8 seçki dairəsinin ərazisində namizədlər üçün bərabər şərait təmin edilməyib. Belə ki, bu cür seçki ərazilərində müəyyən namizədlər üçün seçicilərlə görüş üçün zəruri şərait təmin edildiyi halda bu imkanlar digər namizədlər üçün təmin edilməyib. Bəzi hallarda isə namizədlərin ya özləri, yaxud da onların təşviqatında iştirak edən nümayəndələri təzyiqlərə məruz qalıblar. Bütün bunlar isə Seçki Məcəlləsinin 55-ci (namizədlər üçün bərabər statusun təmin edilməsi) maddəsinin tələblərinin pozulmasıdır.

***Bu cür hallar üzrə müşahidələrə dair misallar.***

• 110 saylı Zaqatala seçki dairəsindən deputatlığa namizəd Elnurə Mədətovanın verdiyi məlumata görə, onun seçki dairəsi üzrə keçirilən bütün görüşlərinə Zaqatala rayon icra hakimiyyəti nümayəndələrinin müdaxilələri olub. Namizəd bildirib ki, görüş keçirdiyi bütün kəndlərdə onu rayon icra Hakimiyyəti və Polis Şöbəsinin nümayəndələri müşayiət ediblər və bu seçicilərin toplaşması, onun görüşünə gəlməsinə mənfi təsir göstərib. E.Mədətova bu barədə DSK-ya şikayət etsə də, hər hansi tədbir görülməyib.

• 110 saylı Zaqatala seçki dairəsindən deputatlığa namizəd olan Hacibəy İbrahimovun verdiyi məlumata görə, onun seçicilərlə görüşünə rayon rəhbərliyi manelər yaradır. Namizədin bildirdiyinə görə kəndlərdə keçirmək istədiyi görüşlərə icra nümayəndələri mane olur və görüşə gəlmək istəyən seçicilərin qarşısını müxtəlif yollarla almağa çalışırlar.

• 42 saylı Sumqayıt ikinci seçki dairəsinidən deputatlığa namizəd Mirmahmud Fəttayevin seçki dairəsi ərazisində yapışdırılan şəkillərini və görüş keçirtmək üçün divarlara, binalara yapışdırılan elanları Sumqayıt şəhəri 41a məhəlləsinin Mənzil istisamar Sahəsinin (MİS) işçiləri tərəfindən qoparılıb. Seçicilərin deputatlığa namizəd ilə görüşə gəlməsinə isə sahə müvəkkillləri maneçilik törədib. Sumqayıt şəhəri 1-ci mikrorayonda keçirilən görüşdə sahə müvəkkili Rəhim Səlimov qapının girişində dayanıb.

• Aprelin 17-də 103 saylı Gədəbəy seçki dairəsindən namizədliyi Musavat partiyası tərəfindən irəli sürülmüş Sabir Məmmədovun Gədəbəy rayon M.Ə.Rəsulzadə küçəsində yerləşən Seçki qərargahının qarşısındakı plakata vurulmuş şəkilləri tamamilə cırılıb yararsız hala salınıb. Namizədin vəkili Şahin Ələkbərovun verdiyi məlumata görə şəkillər post-patrul xidmətinin əməkdaşları tərəfindən cırılıb.

• 31 saylı Suraxanı ikinci seçki dairəsindən namizədliyini irəli sürmüş Hökumə İbrahimlinin məlumatına görə MİS və məktəb işçiləri xüsusi olaraq onun plakatlarının cırılması ilə məşğuldur.

• 110 saylı Zaqatala seçki dairəsindən deputatlığa namizəd Arif Hacılının seçki qərargahından verilən məlumata görə namizədin şəkilləri kəndlərdə kənd icra nümayəndələri və seçki məntəqəsi sədrləri tərəfindən cırılıb. 8 saylı car kənd MnSK-nın sədri Cənnətxanım Hacızadə və kənd icra nümayəndəsi Rəcəb Tintinov kənd sakinlərinin gözü qarşısında Arif Hacılının şəkillərini cırıblar. A.Hacılının səlahiyətli vəkili Saleh Soltanovun bildirdiyinə görə, hakim partiyanın vahid namizədi Hikmət Atayevin yerlərdəki görüşlərini kənd icra nümayəndələri və bələdiyyə sədrləri təşkil edir. Hikmət Atayevin Yuxarı Tala kəndində seçicilərlə görüşündə rayon icra hakimiyyətinin əməkdaşı Elman Ramazanov, təhsil Şöbəsinin müdiri Tahir Məmmədov, şəhər 1 saylı orta məktəbin direktoru Fatma İsrafilova və bir sıra məsul şəxslər iştirak ediblər.

• 31 saylı Suraxanı ikinci seçki dairəsindən namizədliyini irəli sürmüş Hürrü Əliyevin məlumatına görə, qərargaha yaxın yerləşən MİS-in sədri və 275 saylı məktəbin əməkdaşları dəfələrlə onun plakatlarını cırıblar.

• Aprelin 15-də 20-yə qədər naməlum şəxslər 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə deputatlığa namizəd, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayevin seçki qərargahına hücum edərək, oranı dağıdıblar. E.Musayevin bu basqının Yap Binəqədi təşkilatının sədri Füzuli İsmayılzadə və rayonun icra başçısı Alı Qocayev tərəfindən təşkil olunduğunu iddia edib. O, faktla bağlı MSK-ya müraciət etdiyini bildirib.

## X. SEÇKİ GÜNÜ

SMM fərdi qaydada Mərkəzi və dairə seçki komissiyalarında qeydiyyatdan keçmiş 182 nəfər müşahidəçiyə yardım etməklə 13 may 2006-cı ildə keçirilən təkrar parlament seçkilərini 10 seçki dairəsi üzrə 213 seçki məntəqəsində müşahidə edib.
SMM müşahidəçilərini seçki günü müşahidə prosedurları, müşahidəçilərin davranış və hesabatvermə qaydaları və Müşahidə Anketlərindən (Açılış, Səsvermə və Səssayma mərhələləri üzrə) ibarət Toplu ilə təmin edib. Eyni zamanda hər bir müşahidəçi hüquq pozuntusu üzrə xüsusi Akt forması, Şikayət və Rəy formaları ilə təchiz olunub.
SMM-in mütəxəssisləri 10 seçki dairəsi üzrə 213 seçki məntəqəsindən daxil olmuş qanun pozuntularına dair 300 nüsxə akt (bəzi sənədlər mükəmməl tərtib olunmadığı üçün istifsdə olunmayıb), 8 nüsxə şikayət, 47 nüsxə rəy və 164 seçki məntəqəsindən olan yekun protokol əsasında seçki günü 3 mərhələnin – seçki məntəqəsinin təşkili və açılması, səsvermə, səslərin sayılması proseslərini təhlil edib.

Ümumilikde isə SMM-in malik olduğu sənədlər təkrar seçkilərin keçirildiyi seçki dairələrinin hər birini, seçki məntəqələrinin isə ***62 faizini*** (seçki məntəqələrinin Ümumi sayı 343 olub) əhatə etdiyi üçün parlament seçkilərini təhlil etməyə və qiymətləndirməyə imkan verir.
SMM səsvermənin monitorinqinin nəticələri üzrə seçki günü 2 dəfə Press Reliz hazırlayaraq Azərbaycan və ingilis dillərində yayıb. Seçki gününün səhəri isə SMM təmsilçiləri mətbuat konfransı keçirərək ilkin Rəyi təqdim ediblər.

### 1) Səsvermə

**A) Seçki məntəqələrinin açılışı və səsvermənin təşkili**

SMM-in seçki günü müşahidələrinə görə, səsvermə ölkə üzrə müşahidənin aparıldığı seçki məntəqələrinin əksəriyyətində qanunla müəyyən olunmuş vaxtda – 8.00-da başlayıb. **Yalnız 4 seçki məntəqəsində** müşahidəçilər səsvermənin 15-30 dəqiqə gec başladığını qeydə alıblar.

SMM müşahidəçilərinə **2 seçki məntəqəsində** daşınan və daşınmaz seçki qutularının möhürlənməsinin müşahidəsinə MnSK sədrləri məhdudiyyətlər yaradıblar.
Eyni zamanda seçki bülletenlərinin doldurulması qaydaları, namizədlər, həmçinin namizədlyi ləğv olunmuş və ya geri götürülmüş namizədlər barədə məlumat lövhələri bəzi seçki məntəqələrində müşahidə olunmayıb.
Bu cür hallar ölkə üzrə müşahidənin aparıldığı 213 seçki məntəqəsindən **38 SEÇKİ MƏNTƏQƏSİNDƏ** və ya **11 FAİZİNDƏ** qeydə alınıb.

**B) Səsvermə zamanı qanun pozuntuları**

Səsvermə başladıqdan təxminən 2-3 saat sonra müşahidənin aparıldığı seçki dairələrinin əksəriyyətində səsvermə prosesinə təsir edən, həmçinin seçki iştirakçılarının iradəsinin və hüquqlarının məhdudlaşdırılması ilə müşayiət olunan qanun pozuntuları qeydə alınıb. Belə ki, səsvermə prosesi zamanı bir sıra seçki məntəqələrində prosedurlara əməl olunmayıb, proses isə tədricən idarəolunmaz və qarışıq xarakter alıb. MnSK sədrləri isə belə halda bütünlüklə prosesə nəzarətini itirib.
Əksər bu cür hallarla bağlı müşahidəçilərin irad və təkliflərinə MnSK sədrlərinin münasibəti qeyri-adekvat və qərəzli olub.

***Seçki günü müşahidə olunan qanun pozuntularını aşağıdakı qaydada qruplaşdırmaq olar.***

• Seçicilərin adlarının seçici siyahılarına salınmaması:
SMM-in müşahidəçiləri seçki günü **64 SEÇKİ MƏNTƏQƏSİNDƏ** səsverməyə gələn seçicilərin adlarının seçki siyahılarında almadığını qeydə alıblar. Seçici siyahısında adlarını tapmayan seçicilər öz adlarını məhkəmə vasitəsilə siyahılara əlavə edərək, səsvermədə iştirak edibler. Ancaq Seçki Məcəlləsində nəzərdə tutulan bu hüquqdan adları seçici siyahılarında olmayan əksər seçicilər istifadə edə bilməyiblər.
SMM-in hesablamalarına görə, seçici siyahılarında adları olmayan seçicilərin sayı təxminən 596-600 nəfər olub.

**• Sənədsiz seçicilərin səsvermədə iştirakı**
Azərbaycan seçki qanunu və müvafiq normativ aktlara əsasən hər bir seçici şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiq edən sənəd (hərbi bilet, müvəqqəti şəxsiyyət vəsiqəsi, məcburi köçkün vəsiqəsi) təqdim etməklə seçki bülleteni alaraq, səsvermədə iştirak edə bilər. Ancaq seçki günü əksər seçki dairələrində bu prosedura əməl olunmayıb.
Bu cür hallar seçki günü müşahidənin aparıldığı **69 seçki MƏNTƏQƏSİNDƏ** müşahidə olunub.

**• Seçiciyə artıq bülleten və ya zərfin verilməsi**
Seçki günü müşahidə olunan qanun pozuntularından biri də bir seçiciyə birdən artıq bülleten və ya zərfin verilməsi ilə bağlı olub.
SMM-in müşahidəçiləri seçicilərə bəzi seçki məntəqələrində 5-6, bəzisində isə daha artıq sayda bülletenlərin verilməsini qeydə alıblar. Bəzi hallarda seçki bülletenlərinin əvvəlcədən namizədlərdən birinin xeyrinə işarələnməsi müəyyən olunub.
Bu cür hallar müşahidənin aparıldığı 213 seçki məntəqəsindən **23 SEÇKİ MƏNTƏQƏSİNDƏ** müşahidə olunub.

**• Xüsusi qruplar halında səsvermə və başqa ərazidə yaşayanların səsvermədə iştirakı:**
Seçki günü yerli icra hakimiyyətləri və namizədlərin seçki məntəqələrinə xüsusi qrup halında ( 10-20 nəfər) seçicini gətrilələri, onları bir neçə seçki məntəqələrinə daşınmaları və seçki məntəqələri qarşısında namizədlərdən birinə səsvermələri üçün təlimatlandırmaları müşahidə olunub. Belə hallarda bu prosesdə iştirak edən seçicilər xüsusi avtobuslarla seçki məntəqələrinə gətirilib və geri aparılıb.

**SMM 118 SEÇKİ MƏNTƏQƏSİNDƏ** bu cür halları müşahidə edib. Bu isə SMM-in əhatə etdiyi seçki məntəqələrinin **55 FAİZİNİ** təşkil edir.

• **<u>Seçicilərin iradəsinə təzyiqlər:</u>**
SMM-in müşahidəçilərinin qeydə aldığı və əksər seçki dairələrində müşahidə olunan digər kobud qanun pozuntusu səsverməyə gələn seçicilərin iradəsinə təzyiqlər ilə bağlıdır. Əsasən yerli icra hakimiyyətlərinin nəzarəti altında baş verən bu prosesdə dövlət büdcəsindən maliyyələşən strukturların işçiləri və naməlum şəxslər iştirak ediblər.
Seçki günü bu cür hallar **93 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alınıb.

• **<u>Səsvermənin gizliliyinin pozulması:</u>**
Seçki günü bəzi MnSK sədrləri və üzvləri səsvermə prosesində gizliliyin təmin olunmasına səylər göstərməyiblər. Bu cür hallarda səsvermə kabinəsinə bir neçə nəfər birgə daxil olaraq, seçki bülletenini doldurmuş, bəzi hallarda isə seçki bülletenləri səsvermə kabinəsindən kənarda doldurulmuşdur.

SMM-in müşahidəçiləri bu cür pozuntuları **79 SEÇKİ MƏNTƏQƏSİNDƏ** müşahidə ediblər.

**• <u>Başqasının əvəzinə səsvermə</u>**
SMM-in müşahidəçiləri seçki günü bəzi seçicilərin öz qohumları və ailə üzvlərinin, bəzi hallarda komissiya üzvlərinin seçicilərin əvəzinə səsvermədə iştirak hallarını müşahidə ediblər.
Seçki günü bu cür hallar **62 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alınıb. Bu isə SMM-in əhatə etdiyi seçki məntəqələrinin **29 FAİZİNİ** təşkil edir.

**• <u>Seçki qutusuna saxta bülletenlərin atılması</u>**
SMM-in müşahidəçiləri **26 SEÇKİ MƏNTƏQƏSİNDƏ** səsvermənin gedişində seçki komissiyaları üzvləri, namizədlərin vəkilləri və müşahidəçilərin namizədlərdən birinin xeyrinə seçki qutusuna işarələnmiş saxta bülletenlər atıldığını qeydə alıblar. Bu isə SMM-in əhatə etdiyi seçki məntəqələrinin **36 FAİZİNİ** təşkil edir.

• Seçkilərə yerli hakimiyyət orqanları və polisin müdaxiləsi:
SMM-in müşahidə apardığı bəzi seçki məntəqələrində səsvermə prosesinə yerli icra hakimiyyətləri, bələdiyyə və polis əməkdaşlarının müdaxilələri qeydə alınıb.
SMM-in müşahidəçiləri bu cür halları **65 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alıblar.

**• <u>Namizədlərin xeyrinə təşviqat aparılması:</u>**
Səsvermənin gedişində bəzi seçki dairələrində həm seçki məntəqələrinin qarşısında, həm də seçki məntəqələrinin içərisində namizədlərin xeyrinə təbliğat aparılıb.
Seçki günü bu cür hallar **73 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alınıb. Bu isə ölkə üzrə seçki məntəqələrinin **34 FAİZİNİ** təşkil edir.

***Səsvermə prosesi zamanı müşahidə olunmuş qanun pozuntuları:***

• SMM-in müşahidəçisi Qazıyev Kamranın verdiyi məlumata görə, 110 saylı Zaqatala seçki dairəsinin 24 saylı seçki məntəqəsinə QAZeL markalı 10 TC 480 nömrəli mikroavtobus və VAZ 21099 markalı 10 HP 275 nömrəli avtomobillərlə Hikmət Atayevin tərəfdarları seçici qruplarının daşınmasını təşkil ediblər.

• 103 saylı Gədəbəy seçki dairəsinin 17 və 18 saylı seçki məntəqələrinin sədrləri Arif Həsənovla Sahib Sadıqov səsverməyə gələn seçicilərə deputatlığa namizəd Rafiq Məmmədhəsənovun təbliğatını aparıblar.

Adıçəkilən namizədin təbliğatını 26 saylı seçki məntəqəsinin qarşısında Gərgər kənd orta məktəbin direktoru Məhəmməd Nağıyev və Milli Bankın Gədəbəy şöbəsinin müdiri də aparıblar.

• Cəlilabad rayonu Privolnoe kəndinin icra nümayəndəsi Ələkbər Əkbərov 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin 6 saylı seçki məntəqəsinin seçici siyahısına daxil edilmiş 240 nəfərdən şəxsiyyət vəsiqəsi hazırlamaq adı ilə müxtəlif sənədlər toplasa da, seçki gününə kimi onların sənədlərini geri qaytarmayıb. Seçki günü isə Ələkbər Əkbərov bu seçki məntəqəsinin qarşısında duraraq seçicilərə təzyiq göstərib, onlardan namizəd Fəzail İbrahimliyə səs verməyi tələb edib.

• SMM-in müşahidəçisi Hikmət Səlimovun verdiyi məlumata görə, 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 30 saylı seçki məntəqəsində saat 10.00 radələrində bir nəfər seçici qutuya 3 ədəd hazır möhürlənmiş bülleten (zərf) atıb.

• 110 Zaqatala seçki dairəsi 20 saylı Raldar kənd və 25 saylı Bəhmətli kənd seçki məntəqələrində namizəd Elnurə Mədətovanın səlahiyyətli nümayəndələri – Xəyyam Məmmədov və İsmayıl Əhmədov seçki bülletenlərinin sayı ilə bağlı sual verdiklərinə görə polis vasitəsilə məntəqədən kənarlaşdırılıblar.

• 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 2 saylı seçki məntəqəsində bir seçici özündən başqa 2 nəfərin (övladlarının) əvəzinə, 19 saylı seçki məntəqəsində isə bir seçici 3 nəfərin əvəzinə səs verib.

• 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə 32 BB 050 nömrəli RAF, 10 HR 241 nömrəli QAZel, 10 HD 229 nömrəli QAZel, 45 BC 562 nömrəli RAF markalı mikroavtobuslarla bir qrup seçici bütün məntəqələri gəziblər. Bu prosesə namizəd Asəf Hacıyevin tərəfdarı Xanlar Quliyev rəhbərlik edib.

• 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 13 saylı Hacalı kənd seçki məntəqəsində kənd icra nümayəndəsi Sahib Quliyev seçiciləri məntəqələrə apararaq namizəd İlyas İsmayılova səs verməyi tapşırıb.

• 103 saylı Gədəbəy seçki dairəsinin 10 saylı seçki məntəqəsində SMM-in müşahidəçisi Əminə İbrahimova Zəhmət kənd icra nümayəndəsi Rəşid Musayevin təzyiqinə məruz qalaraq, məntəqədən çıxarılıb. Müşahidəçi məntəqəni tərk etməyəcəyi təqdirdə qardaşının işdən çıxarılacağı ilə hədələnib.

• 44 saylı Sumqayıt Abşeron seçki dairəsinin 16, 18 və 20 saylı seçki məntəqələrinə deputatlığa namizəd Baba Tağıyevin tərəfdarları 10 DR 812, 10 BA 829 və 10 FA 143 nömrəli mikroavtobuslarla seçicilər gətiriblər.

• 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 16 saylı məntəqəsində saat 09:00-dan 12:00-a qədər komissiya üzvləri müşahidəçilərin normal fəaliyyətini məhdudlaşdırıblar. MnSK-a sədri Gülməmmədov Gülməmməd müşahidəçilərə yerindən tərpənməsinə imkan verməyib.

• 110 saylı Zaqatala seçki dairəsinin 23 saylı Mosul kənd seçki məntəqəsində bələdiyyə sədri İbrahim İbrahimov seçicilərin VAZ-2107 markalı 62 BB 689 və VAZ-2106 markalı 62 BA 684 dövlət nömrə nişanlı avtomobillərlə seçki məntəqəsinə gətirilməsini təşkil edib.

• SMM-in müşahidəçisi Əkbərov Sahibin verdiyi məlumata görə 103 saylı Gədəbəy seçki dairəsinin 20 saylı məntəqəsində saat 12.00-dək MnSK üzvlərinin sayı 3 nəfər olub. Saat 14.00-dək seçicilərin səsverməyə az sayda gəldiyini görən MnSK sədri Albuz Hüseynov seçki qutusuna saxta bülletenlərin tullanılmasını tapşırıb. O, saat 16.00-da müşahidəçiləri məntəqədən çölə çıxarıb və səsvermənin başa çatdığını bildirib.

**2) SƏSLƏRİN SAYILMASI VƏ SƏSVERMƏNİN NƏTİCƏLƏRİNİN HESABLANMASI**

Seçki günü səsvermə başa çatdıqdan sonra qanunla müəyyən olunmuş vaxtda – saat 19.00-dan sonra seçki bülletenlərinin sayılması və səsvermənin nəticələrinin hesablanması prosesi başlayıb. Qeyd edək ki, bu prosesdə diqqət çəkən mütərəqqi hal əvvəlki seçkilərdən fərqli olaraq prosesin operativ həyata keçirilməsi və seçki prosesini izləyən şəxslərin bəzi hallarda seçki protokolları ilə təmin olunmasıdır.

Ancaq bununla belə bir çox seçki məntəqələrinə səsvermənin nəticələrinə və səslərin sayılması prosesinə şübhələr yaradan qanun pozuntuları baş verib.

***SMM apardığı müşahidələr zamanı qeydə alınmış qanun pozuntularını aşağıdakı qaydada qruplaşdırıb:***

**Aşkarlığın pozulması və müşahidəyə məhdudiyyətlər:**

Müşahidənin aparıldığı bəzi seçki məntəqələrində səslərin sayılması prosesi zamanı aşkarlıq pozularaq, sərbəst müşahidəyə imkan verilməyib. Bu cür hallarda MnSK sədrləri səslərin sayılmasını və protokolun tərtib olunmasını müşahidəçilərdən uzaq məsafədə təşkil ediblər.

Məsələn, belə hallar SMM-in müşahidə apardığı 9 saylı Binəqədi ikinci seçki dairəsinin 9 saylı seçki məntəqəsində, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 7, 12, 13, 14, 15, 16, 24 saylı seçki məntəqələrində, 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 4 saylı seçki məntəqəsində, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 14, 31, 34 saylı məntəqələrində, 110 saylı Zaqatala seçki dairəsinin 24, 25 saylı məntəqələrində baş verib.

SMM-in müşahidəçiləri aşkarlığın pozulması və müşahidəyə məhdudiyyətləri **58 SEÇKİ MƏNEƏQƏSİNDƏ** və ya müşahidə aparılan 213 seçki məntəqəsinin **27 FAİZİNDƏ** qeydə alıblar.

**Seçki məntəqələrində səsvermənin nəticələrinin açıqlanmaması və protokolların asılmaması**

Müşahidənin aparıldığı bəzi seçki məntəqələrində səslərin sayılması başa çatdıqdan sonra MnSK sədrləri prosesi müşahidə edən müşahidəçilər və namizədlərin səlahiyyətli nümayəndələrinə yekun protokolu verməkdən imtina ediblər. Eyni zamanda qanunazidd olaraq bəzi seçki məntəqələrində səssaymadan dərhal sonra seçicilərin nəticələr ilə tamış olmaları üçün yekun protokollar asılmayıb.

SMM-in müşahidəçiləri səsvermənin nəticələrinin açıqlanmaması və yekun protokolların asılmamasını **49 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alıblar. Bu isə SMM-in əhatə etdiyi seçki məntəqələrinin **23 FAİZİNİ** təşkil edib.

**Səslərin düzgün sayılmaması:**

SMM-in müşahidəçiləri bəzi seçki məntəqələrində MnSK sədri və üzvlərinin seçki bülletenlərini sistemsiz, əksər hallarda isə müəyyən namizədlərin xeyrinə hesablamalarının şahidi olub. Bir çox hallarda isə MnSK-nın bəzi üzvləri seçki qutusundan çıxan bülletenlərlə əvvəlcədən hazırlanmış saxta bülletenləri qarışdırmaq istəyiblər.

Ümumilyətlə, seçkidən sonra SMM-in malik olduğu 164 seçki məntəqəsindən daxil olan protokollarla MSK-nın "Seçkilər" İnformasiya Mərkəzinin Veb səhifəsində dərc olunmuş rəsmi məlumatların müqayisəsi aparılıb. Müqayisənin nəticələrinə görə, 164 MnSK-nın tərtib etdiyi yekun protokolla MSK-nın rəsmi nəticələri əks olunan **11 YEKUN PROTOKOL** arasında uyğunsuzluq və ziddiyyət var. Başlıca fərqlər isə hər bir seçki məntəqəsi üzrə səsvermədə iştirak edənlərin ümumi sayı, etibarlı səslərin sayı və ilk yerləri tutan namizədlərə verilən səslərin sayında özünü göstərir.

Ümumiyyətlə, səslərin düzgün sayılmaması və yekun protokolların MnSK üzvləri tərəfindən saxtalaşdırılması hallarını SMM-in müşahidəçiləri seçki günü **23 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alıblar.

***Səssayma prosesi və yekun protokolların saxtalaşdırılması halları üzrə müşahidə olunan pozuntulara dair misallar:***

• 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi 21 saylı Məntəqə Seçki Komissiyasının (MnSK) sədri Göyçək Ələsgərova və 24 saylı Əlicabbar Səfərov SMM ilə əməkdaşlıq edən müşahidəçilərə səsvermənin nəticələrinə dair protokolun surətini verməkdən imtina edib. Bu seçki dairəsi üzrə 28 saylı MnSK-nın sədri Mübariz Eyniyev isə protokolun əlavə nüsxəsinin olmadığını bəhanə gətirərək müşahidəçilərə protokolun surətini verməyib. Eyni hal 6 və 22 saylı seçki məntəqələrində də baş verib.

• 110 saylı Zaqatala seçki dairəsinin 25 saylı seçki məntəqəsində səslərin sayılması prosesi zamanı aşkarlıq pozulub. MnSK-nın sədri Rauf Osmanov müşahidəçilərin seçki Bülletenlərinin sayılmasını yaxından müşahidə aparılmasına imkan verməyib. Bu seçki dairəsi üzrə 24 saylı seçki məntəqəsində isə müşahidəçilər səssayma prosesinin izlənilməsindən kənarlaşdırılıb. MnSK-nın sədri Mais Muradov polis çağıraraq müşahidəçiləri məntəqədən çıxartmağı göstəriş verib.

• 31 saylı Suraxanı ikinci seçki dairəsinin 13 saylı seçki məntəqəsində MnSK sədri Barat Quliyev seçki bülletenlərinin sayılması prosesinin müşahidə olunmasına məhdudiyyətlər yaradıb. Belə ki, müşahidəçilərə yaxın məsafədən səslərin sayılmasını müşahidə etməyə imkan verilməyib və onlar gözlə görünən məsafəyə buraxılmayıblar. Seçki bülletenləri heç bir müşahidəçiyə göstərilməyib. Etiraz bildirən müşahidəçilər polisin məntəqəyə çağırılmasından sonra məntəqədən lənarlaşdırılıblar. Bu seçki dairəsinin 14 saylı seçki məntəqəsində isə seçki bülletenləri sayılarkən aşkarlıq təmin olunmayıb. Buna etiraz edən müşahidəçi Ceyran Zeynalovanı MnSK sədri Natelle Musayeva polis vasitəsilə məntəqədən kənarlaşdırmağa cəhd edib. Qeyd edək ki, seçki məntəqəsində polisin olmasına baxmayaraq səslərin sayılması prosesi aparılıb.

• 31 saylı Suraxanı ikinci seçki dairəsi 23 saylı MnSK sədri Nizaməddin Məmmədov seçki məntəqəsi açılarkən qəbul olunmuş bülletenlərin sayı haqqında aktı müşahidəçilərə göstərməkdən imtina edib. Səslərin sayılması zamanı da müşahidəçilərin iradlarına baxmayaraq, bülletenlərin sayı haqqında akt təqdim edilməyib. Nəticədə protokolda səs vermiş seçicilərin ümumi sayını müəyyən etmək mümkün olmayıb.

• 9 saylı Binəqədi ikinci seçki darəsinin 10 saylı seçki məntəqəsində bülletenlərin sayı elan edilməmiş və səslər sayılarkən səslərin sayılması prosedurlarına əməl olunmayıb. Bu seçki darəsinin 14 saylı məntəqəsində isə MnSK sədri Tanrıverdi Orucov səsvermə başa çatdıqdan sonra dərhal səslərin sayılmasına başlamağa imkan verməyib. O, seçki məntəqəsini tərk edərək DSK-ya gedib və 2 saatdan sonra geri qayıdaraq səslərin sayılması prosesinin aparılmasına icazə verib Bu seçki dairəsi üzrə 3 saylı seçki məntəqəsinin sədri İsa Cahanov isə səslərin hesablanmasının Başa çatmasına baxmayaraq, protokolu imzalamaqdan imtina edib və müşahidəçilər seçki məntəqəsindən çıxarılıb.

• 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 16 saylı seçki məntəqəsində səssayma zamanı bülletenlər qəsdən yerə dağıdılıb. Sonra yerdən əlavə bülletenlər yığılaraq səslərin sayılması prosesi davam etdirilib. 17 saylı seçki məntəqəsində isə müşahidəçi Zöhrab Vəlibəyli bir seçicinin digər seçicinin adının qarşısında qol çəkib səs verməsinə etirazını bildirdikdə, polis və mülki şəxslər tərəfindən məntəqədən çıxarılaraq, DSK-ya aparıblar.

### 3) SEÇKİ KOMİSSİYALARI ÜZVLƏRİ VƏ MÜŞAHİDƏÇİLƏRƏ TƏZYİQLƏR:

Seçki günü həm səsvermə, həm də səslərin sayılması prosesində seçki komissyiaları üzvləri və müşahidəçilərə MnSK üzvləri, yerli icra hakimiyyəti, polis əməkdaşları və namizədlərin tərəfdarlarının mənəvi-psixoloji və fiziki təzyiqləri baş verib. Bu cür hallar daha çox baş vermiş qanun pozuntusuna etiraz edən şəxsləri qorxutmaq və onları seçki prosesindən kənarlaşdırmaq məqsədi daşıyıb.

Məsələn, 110 saylı Zaqatala seçki dairəsinin 24 saylı seçki məntəqəsində müşahidəçilər səssayma prosesindən kənarlaşdırılıb. MnSK-nın sədri Muradov Mais heç bir səbəb olmadan polis çağıraraq müşahidəçiləri məntəqədən çıxartdırıb. 28 saylı Muxax kənd seçki məntəqəsinin sədri ikram Həsənov isə SMM ilə əməkdaşlıq edən Hafiz Heydərovu həmin məntəqədə fəaliyyət göstərən digər müşahidəçilərlə informasiya mübadiləsi etdiyinə görə seçki məntəqəsindən kənarlaşdırıb.
38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 8 saylı seçki məntəqəsində yekun protokolun surəti müşahidəçilərə verilməyib. MnSK-nın sədri Məlahət Şükurova müşahidəçilərə protokolun surətinin bir gün sonra veriləcəyini bildirib. Sonra polis çağıraraq müşahidəçiləri zorla seçki məntəqəsindən çölə çıxartdırıb.
42 saylı Sumqayıt ikinci seçki dairəsinin 17 saylı seçki məntəqəsində isə SMM ilə əməkdaşlıq edən müşahidəçi Zöhrab Vəlibəyli bir seçicinin digər bir seçicinin adının qarşısında qol çəkib səs verməsinə etirazını bildirdiyi zaman polis və mülki şəxslər tərəfindən məntəqədən çıxarılaraq DSK-ya aparılıb. Bu seçki dairəsinin 3 saylı MnSK üzvi Qurbanova Kifayət SMM ilə əməkdaşlıq edən müşahidəçi Leyla İskəndərovaya təzyiq edərək, onun yaxından müşahidə aparmasına müdaxilə edib.

Qeyd edək ki, bu cür hallar müşahidənin aparıldığı 213 seçki məntəqəsindən **76 SEÇKİ MƏNTƏQƏSİNDƏ** qeydə alınıb.

## XI. RƏSMİ NƏTİCƏLƏR. ŞİKAYƏTLƏRƏ BAXILMASI VƏ SEÇKİDƏN SONRA VƏZİYYƏT

### 1) Rəsmi nəticələr:

MSK Seçki Məcəlləsinə müvafiq olaraq parlament seçkilərinin nəticələrinə dair dairə seçki komissiyalarının yekun protokollarının toxlanmasını 14 may 2006-ci ildə başlayıb və bu prosesi 13 gün müddətində həyata keçirib.
27 may 2006-cı ildə MSK qəbul etdiyi qərarla təkrar seçkilərin ümumi nəticələrinə dair MSK-nın yekun protokolu və dairə seçki komissiyalarının sənədləri təsdiq olunmaq üçün Konstitusiya Məhkəməsinə göndərilib. Səsvermənin ümumi yekunları haqqında MSK-nın protokolunda səsvermənin nəticələri 10 seçki dairəsinin hər birində etibarlı hesab edilmiş və bu dairələr üzrə deputat seçilmiş namizədlər müəyyən olunmuşdur.
MSK-nın qərarına əsasən 103 saylı seçki dairəsinin 3 saylı, 110 saylı Zaqatala seçki dairəsinin 14 saylı və 119 saylı ağdam kənd seçki dairəsinin 10 və 37 saylı seçki məntəqələri üzrə (cəmi 4 seçki məntəqəsi) səsvermənin nəticələri etibarsız hesab edilmişdir.
MSK Azərbaycan Respublikası Milli Məclisinə keçirilmiş təkrar seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında MSK-nın protokolunu, habelə dairə seçki komissiyalarının protokollarını 27 may 2006-cı il tarixdə Azərbaycan Respblikası Konstitusiya Məhkəməsinə təqdim edib.

***Həmin protokola əsasən aşağıdakılar müəyyən olunub:***
Seçici siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı – 392 033
Səsvermədə iştirak edən seçicilərin ümumi sayı – 1415559

9 saylı Binəqədi ikinci seçki dairəsi – Cəbrayılov Rəfael Kamil oğlu – bitərəf
31 saylı Suraxanı ikinci seçki dairəsi – Vəliyev Əhməd Abdulkərim oğlu –Yeni Azərbaycan Partiyası
38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi – Hacıyev Asəf Hacı oğlu –bitərəf
42 saylı Sumqayıt ikinci seçki dairəsi – Kərimov Məcid Zahid oğlu – Yeni Azərbaycab Partiyası
44 saylı Sumqayıt-Abşeron seçki dairəsi – Tağıyev Baba Əli oğlu – bitərəf
69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi – İbrahimli Fəzail Feruz – Vətəndaş Həmrəyliyi Partiyası
103 saylı Gədəbəy seçki dairəsi – Məmmədhəsənov Rafiq Musa oğlu – Yeni Azərbaycan Partiyası
106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi – İsmayılov İlyas Abbas oğlu – Ədalət Partiyası
110 saylı Zaqatala seçki dairəsi - Atayev Hikmət İsmayıl oğlu – Yeni Azərbaycan Partiyası
119 saylı Ağdam kənd seçki dairəsi – Sadıqov Bəxtiyar Yusif oğlu Yeni Azərbaycan Partiyası

MSK-nın təqdim etdiyi sənədlər əsasında Konstitusiya Məhkəməsi 5 iyun 2006-cı ildə plenum keçirərək, təkrar parlament seçkilərinin nəticələrini müzakirə edib və 10 seçki dairəsində nəticələri etibarlı hesab etməklə təkrar parlament seçkilərinin nəticələrini təsdiq edib. Konstitusiya Məhkəməsinin qərarında göstərilir ki, 10 seçki dairəsində - 9 saylı Binəqədi ikinci, 31 saylı Suraxanı ikinci, 38 saylı Nizami ikinci (Gəncə), 42 saylı Sumqayıt ikinci, 44 saylı Sumqayıt-Abşeron, 69 saylı Cəlilabad-Masallı-BİləsuvaR, 103 saylı Gədəbəy, 106 saylı Tovuz-Qazax-Ağstafa, 110 saylı Zaqatala və 119 saylı Ağdam kənd dirə seçki komissiyalarının protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olduğundan həmin dairələr üzrə seçkilərin nəticələri təsdiq edilsin.

**2) Şikayətlərə baxılması:**

Seçki Məcəlləsinə müvafiq olaraq seçki günündən sonra dairə seçki komissiyalarından daxil olmuş yekun protokolların MSK-da yoxnalılması prosesi başlayıb. Ancaq təəssüf ki, MSK dairə seçki komissiyalarının yekun protokollarına əlavə sənədləri – müşahidəçilərin qanun pozuntuları barədə aktları və rəylərini ədalətli və açıq şəkildə araşdırmayıb.

Seçkidən sonra SMM-in apardığı müşahidələr göstərir ki, MSK-ya daxil olmuş şikayətlər əsasən seçicilərin iradəsinə təzyiqlər, seçki prosesinə kənar müdaxilələr və səslərin sayılması prosesi barədə olub və bu hallar seçkilərin birbaşa nəticələrinə təsir edən ciddi pozuntular olub.

Ancaq SMM-ə daxil olan məlumatlar göstərir ki, əslində şikayətlərin sayı bəyan olunan rəqəmdən xeyli çox olsa da, MSK tərəfindən bəzi şikayətlər Dairə Seçki Komissiyalarına göndərilib, bəzi şikayətlərə ümumiyyətlə baxılmayıb, bəzi hallarda isə baxılsa da gec cavab verilib.

Seçkidən sonra SMM ilə əməkdaşlıq edən müşahidəçilər 9 saylı Binəqədi ikinci, 31 saylı Suraxanı ikinci, 38 saylı Nizami ikinci, 42 saylı Sumqayıt ikinci, 44 saylı Sumqayıt-Abşeron, 103 saylı Gədəbəy, 106 saylı Tovuz-Qazax-Ağstafa və 110 saylı Zaqatala Dairə Seçki komissiyasına şikayət veriblər. Lakin bu şikayətlərin hamısı araşdırılmamış qalıb.

Qeyd edək ki, seçki günündən sonra SMM 10 seçki dairəsi üzrə seçki məntəqələrində səsvermə və səslərin sayılması prosesləri zamanı baş vermiş qanun pozuntularına dair aktları dairə seçki komissiyalarının yekun protokollarının yoxlanılması və şikayətlərin araşdırılması proseslərinə yardımçı sənədlər kimi MSK təqdim edib. Ancaq MSK bunu şikayət kimi qəbul edərək, vaxtın keçdiyini əsas gətirib və təqdim olunan sənədləri araşdırmayıb.

Seçki hüquqlarının pozulması halları üzrə şikayətlərin hazırlanması və təqdimatı prosesi də ötən seçkidə olduğu kimi mükəmməl səviyyədə olmayıb. SMM-in müşahidələrinə əsasən bir çox namizədlər şikayətləri bütün instansiyalara təqdim etmək yönündə cəhdlər etməyiblər. Eyni zamanda Seçki Məcəlləsinə əsasən şikayətlərin seçki komissiyalarına təqdim olunması müddətinin az olması (3 gün), həmçinin şikayətlərin MSK-nın təlimatına uyğunlaşdırılmaması öncədən nəzərə alınmayıb. Bəzi hallarda isə namizədlər həm DSK-ların, həm də MSK-nın fəaliyyətindən və ya qərarından yuxarı instansiyaya şikayət etməklə gecikib.

**3) Seçkidən sonra vəziyyət:**

Təkrar parlament seçkilərindən sonra – mayın 15-də ATƏT DTHB-in Məhdud Müşahidə Missiyası Press Reliz yayaraq, seçkilərin prosesin bəzi aspektlərində irəliləyişin olduğunu göstərsə də, davamlı seçki islahatlarına ehtiyacın olduğunu göstərən narahatedici məqamların davam etdiyi aşkar edilmişdir.

ABŞ-ın Azərbaycandakı səfirliyi mayın 16-da Press Reliz yayaraq, bildirib ki, bu təkrar seçkilər 2005-ci il 6 noyabr parlament seçkiləri kontekstində nəzərdən keçrilməlidir və biz ATƏT/DTİHB-nin seçki prosesinə dair 1 fevral tarixli hərtərəfli hesabatına şərik olduğunuzu bildiririk. Biz Azərbaycan hökümətini ATƏT/DTİHB-nın tövsiyyələrini həyata keçirmək üçün onunla işi davam etdirməyə çağırırıq.

Avropa Birliyi (AB) ölkələri səfirlərinin bəyanatında parlament seçkiləri zamanı baş vermiş pozuntular və kütləvi saxtakarlıq faktlarının olması vurğulanıb, şikayətlərin tezliklə araşdırılması təklif edilib.

Ölkədə fəaliyyət göstərən Qht-lər və digər hüquq müdafiə təşkilatları təkrar seçkilər günü qeydə alınmış hüquq pozuntularının pisləyən bəyanatlarla çıxış ediblər.

5 iyun 2006-cı ildə Konstitusiya Məhkəməsinin qərarı ilə parlament seçkilərinin nəticələri 10 seçki dairəsində təsdiq olundu. Bununla da 124 nəfərlik parlamentin (17 saylı Yasamal üçüncü seçki dairəsindən deputat seçilmiş Lalə-Şövkət Hacıyeva öz mandatından imtina edib) siyasi tərkibi isə aşağıdakı sayda oldu:

- Yeni Azərbaycan Partiyası – 61 yer;
- “Azadlıq” siyasi partiyalar bloku – 6 yer;
- Vətəndaş Həməryliyi Partiyası – 3 yer;
- “Yeni siyasət” seçki bloku – 2 yep;
- Ana Vətən Partiyası – 2 yer;
- Ədalət Partiyası – 1 yer ;
- Bitərəflər – 43 yer;
- Digər siyasi partiyalar – 6 yer;

Ölkədə fəaliyyət göstərən bir sıra müxalif partiyalar, o cümlədən Müsavat, Ümid partiyaları, “Azadlıq” bloku təkrar parlament seçkilərinin nəticələrini qeyri-legitim saydıqlarını bəyan ediblər.

## XII. NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR

SMM 13 may 2006-cı ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən təkrar seçkilərin bütün mərhələləri, o cümlədən seçki günü apardığı monitorinqin yekunlarından çıxış edərək aşağıdakı nəticələrə gəlir:

- Ölkədə azad və ədalətli təkrar seçkilərin keçirilməsi üçün normal şərait təmin olunmayıb;

- ATƏT DTİHB və Avropa Şurası Venesiya Komissiyasının seçki qanunvericiliyinə dair təklifləri qəbul edilməyib. Təkrar seçkilərədək azad və ədalətli seçkilərin keçirilməsinə hüquqi təminatlar yaradacaq demokratik və təkmil hüquqi baza formalaşdırılmayıb.

- Mərkəzi Seçki Komissiyasında daxil olmaqla əksər seçki komissiyaları birtərəfli mövqe nümayiş etdirmək və icra hakimiyyəti orqanlarının birbaşa və ya dolayısı nəzarəti altında fəaliyyət göstərmişlər.

- Seçici siyahılarının tərtib olunması köhnə məlumatlar əsasında aparılmış, siyahılarda dəqiqləşdirlmələr olduqca zəif olmuşdur. Bir sıra seçki dairələrində isə seçicilərin adlarının siyahılara daxil edilməməsi halları olmuşdur.

• Seçkiqabağı təşviqat kampaniyasında kütləvi və ciddi qanun pozuntularına yol verilmişdir. Bu pozuntular daha çox iqtidar və iqtidaryönlü namizədlər tərəfindən seçicilərin qanunsuz vasitələrlə ələ alınması, inzibati resurslardan isitifadə və yerli hakimiyyət nümayəndələrinin həmin şəxslərin təşviqat kampaniyalarında iştirakı ilə bağlı olub.

• Təkrar seçkilərdə vətəndaşların sərbəst toplaşmaq azadlıqları dəfələrlə kobudcasına pozulmuş, bir sıra deputatlığa namizədlər və onların tərəfdarları təzyiqlərə məruz qalmışdır.

• Seçki günü səsvermə, səslərin sayılması və seçki məntəqələri üzrə seçkilərin yekunlarının protokollaşdırılması prosesində seçkilərin nəticələrinə ciddi təsir göstərəcək kütləvi qanun pozuntularına yol verilib.

• Seçki komissiyalarında, məhkəmələrdə və prokurorluqda seçkilərlə bağlı şikayətlər səthi araşdırılmış və bu araşdırmalar mahiyyəti üzrə olmamışdır;

**<u>Bütün bu nəticələrin ümumiləşdrilməsi üzrə aşağıdakı ümumi Rəyə gəlinir:</u>**

• 13 may 2006-cı ildə Azərbaycan Respublikasının Milli Məclisinə 10 seçki dairəsində keçirilən təkrar seçkilər azad, ədalətli və demokratik olmamışdır. Bu seçkilər seçicilər və digər seçki iştirakçılarının azad iradəsini ifadə etmir.

• Azərbaycanın siyasi hakimiyyəti bu seçkilərin demokratik və qanuni keçirilməsi siyasi iradə göstərə bilməyib.

**<u>Bütün bunlardan çıxış olunaraq aşağıdakıların həyata keçirilməsi təklif olunur:</u>**

• Seçkilərdə kütləvi qanun pozuntularına yol verilməsi və cəmiyyətdə siyasi qütbləşmənin dərinləşməsinin qarşısının alınması üçün həmin noyabr 2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərin, həm də 13 may 2006-cı ildə keçirilmiş təkrar seçkilərin nəticələri ciddi araşdırılmalıdır;

• Seçki hüquqlarını pozan bütün şəxslər birmənalı olaraq məsuliyyətə cəlb edilməli və cəzalandırılmalıdır.

• Seçki Məcəlləsində qanunvericiliyin təkmilləşdirilməsi və demokratikləşdirilməsi istiqamətində prinsipal və əsaslı dəyişikliklər aparılmalıdır.

• Seçki komissiyalarının tərkibi əsas siyasi qüvvələrin bərabər təmsilçiliyi ilə partitet prinsipi əsasında təşkil edilməlidir.

• Seçki hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi və baxılmasına dair demokratik və təkmil qaydalar müəyyənləşdirilməlidir. Cinayət və inzibati qanunvericilikdə seçki hüquqlarının pozulmasına dair müddəalar genişləndirilməli və cəzanın xarakteri sərtləşdirilməlidir.

• Ölkədə siyasi qüvvələr arasında siyasi dialoq yaradan tədbirlər həyata keçirilməlidir;

**Seçki Monitorinq Mərkəzinin İdarə Heyəti**